# Özbəkistan Televiziyası ulu öndər haqqında veriliş yayımlayıb

**Özbəkistandakı Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzi (AMM) Özbəkistan Dövlət Televiziyası ilə birgə layihəsi olan "Mənbələr sözləşəndə" adlı televiziya verilişini Azərbaycan xalqının ümummilli lideri, Azərbaycan–Özbəkistan dostluğu və dövlətlərarası münasibətlərində müstəsna xidmətləri olan Heydər Əliyevə həsr edib.**

"Heydər Əliyev İli" çərçivəsində hazırlanan verilişdə aparıcı Dildora Hasanova müstəqil Azərbaycanın memarı, fenomen şəxsiyyət olan Heydər Əliyevin həm sovetlər dönənimdə, həm də Azərbaycan müstəqillik qazandıqdan sonra xalq, Vətən qarşısında xidmətlərindən danışıb, ulu öndərin Özbəkistana səfərləri, müstəqil Azərbaycan–Özbəkistan arasında münasibətlərin yüksək səviyyəyə qaldırılması istiqamətindəki xidmətlərindən söhbət açıb.

Verilişə müsahibə verən AMM-nin direktoru Samir Abbasov ulu öndərin apardığı uğurlu siyasət və çoxsahəli fəaliyyəti barədə məlumat verib, Heydər Əliyevlə Özbəkistan dövlət rəhbəri Şərəf Rəşidov, ölkənin birinci prezidenti İslam Kərimov arasındakı sıx dostluq əlaqələrindən danışıb.

S. Abbasov keçmiş SSRİ-də türk və müsəlman respublikalarına qarşı ədalətsiz təxribatlar fonunda Heydər Əliyevin öz xalqının, həm də qardaş xalqların maraqlarını qoruduğunu, Özbəkistanla münasibətlərimizə xüsusi önəm verdiyini qeyd edib.

O, Heydər Əliyevin siyasi irsinin layiqli davamçısı, Prezident İlham Əliyev tərəfindən aparılan uğurlu siyasətin davam etdirildiyini və münasibətlərimizin daha yeni müstəviyə–strateji müttəfiqlik səviyyəsinə qaldırıldığını vurğulayıb.




Özbək tarixçi Şuxrat Salamov Azərbaycan və özbək xalqlarını birləşdirən çox sayda dəyərləri, Heydər Əliyevin hələ SSRİ rəhbərliyində təmsil olunduğu illərdə Özbəkistanı dəstəklədiyini vurğuladı. O, özbək xalqının da Heydər Əliyevin bu xidmətlərini unutmadığını və ulu öndərin adının qardaş ölkədə əbədiləşdirildiyini qeyd edib. Ş. Salamov söyləyib ki, bu gün Daşkənddə Heydər Əliyevin adını daşıyan küçə, meydan, park və Azərbaycan–Özbəkistan dostluğu, əməkdaşlığını, mədəni əlaqələrin möhkəmlənməsi istiqamətində fəaliyyət göstərən mədəniyyət mərkəzi var.

***Qulu KƏNGƏRLİ,***

**Daşkənd**

Xalq qəzeti .- 2023.- 29 mart.- S.5.